Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

Simax Şeyda

# Təyyarə



# Bahar

Köçüb getdi qış,
Bahardır, bahar.
Yağ, yağ, ey yağış,
Bahardır, bahar.

Gülür, bağça-bağ,
Gülür dərə, dağ.
Oyanır torpaq,
Bahardır, bahar.

Suya dönür qar,
Gur axır çaylar.
Bağlarda gül var,
Bahardır, bahar.





# Güldü

Yeriyəndə
Bir gün səhər,
Yerə dəydi
Bacım Gülər.

Dedim indi
Ağlayacaq,
Səs çıxmadı
Qızdan ancaq.

Dönüb baxdı
Mənə sarı;
Güldü körpə
Dodaqları.





# Ağıllı Püstə



Evcik qururdu
Qonşu həyətdə
Səriyyə ilə
Balaca Püstə.

Anası onu
Çağırdı bu dəm.
Püstə hay verib,
Dedi: —Gəlirəm.

Qaş-qabağını
Töküb Səriyyə,
Dedi: —Belə tez,
Gedirsən niyə?

Səhərdən səni
Gözləmişəm mən.
Bir az oynayaq,
Yenə gedərsən.

Püstə dedi;
—Yox, çağırır anam.
Gəlib səninlə
Sonra oynaram.



# İynə

– Nə axtarırsan,
Nənə, ay nənə?
Bu saat tapıb
Qaytarım sənə.
– İynəm düşübdür
Əlimdən, qızım.
Onu gəzirəm
İndi mən, qızım.
– Eh, bir iynəni
Tapmağa nə var!
Mənim gözümdən
Şeymi yayınar?..
Axtardı xeyli
İynəni Ceyran,
Tapa bilməyib,
Utandı yaman.







# Külək

Gəl bu qədər bərk
Əsmə, ey külək.
Dəymiş almalar
Qopur saplaqdan,
Otların üstə
Düşür budaqdan.
Bağı gəz-dolaş,
Əs yavaş-yavaş.
Ancaq arabir,
İkibir, üçbir
Yerə sal — sarı,
Ağ almaları.





# Təyyarə



Quş boydasan
Göy üzündə,
Mən baxıram
Sənə gündə.

Buludları
Yara-yara,
Hey uçursan
Uzaqlara.



Arzum budur
Böyüyəndə,
Təyyarəçi
Olum mən də.



# Araba

Qırdım qəşəng arabanı,
Qırmızı rəng arabanı.
İşləməyir təkərləri
Nə irəli, nə də geri.
Anam dedi: – Yəqin səhər
Qırdı onu bacın Qəmər.
-Yox, yox, – dedim, – ana, düzü
Oynayanda sındı özü.
Arabanı mən qırmışam,
Bərk sürəndə sındırmışam.

# Bəsti



Balaca Bəsti
Əlini kəsdi.
Söylədi ona
Böyük qardaşı:
– Bəsdir ağlayıb,
Tökmə göz yaşı.
Gətir sarıyım,
Sağalıb gedər.
Anam deyənə
Baxsaydın əgər,–
Kəsməzdin indi
Barmağını sən.
Adam böyüyün
Çıxmaz sözündən.



# Qış günləri

Yavaş-yavaş
Düşür axşam;
Odun atır
Peçə anam.

Qardaşımı
Çimdirməyə,
Su qoymuşuq
Qızsın deyə.

Bayırdasa
Bərk şaxta var.
Çölü-düzü
Ağardıb qar.

Bu, sabundur,
Bax, bu da tas.
Bu lif kimi
Lif tapılmaz!

İndi anam
Su qızan tək,
Elsevəri
Çimdirəcək.

Laylay çalıb,
Deyəcək, yat
Şirin-şirin,
Rahat-rahat.





# Tısbağa

Bir tısbağa
Girdi bağa.
Görüb onu,
Qorxdu Emin.
Haray saldı:
– Kömək edin!
Səsə-küyə
Gəldi nənə.
– Nə olmuşdu,–
Dedi, – sənə?
– Məni görüb,

Yeridi o,
Vurağanın
Biridi o.
Gəl, ay nənə,
Qaçaq burdan.
Yoxsa bizə
Verməz aman.
– Tısbağadır,
Qaçma,oğlum.
Dəyməz sənə,
Qurban olum.
Yetişəndə
Ağ üzümlər;
O da bağa
Qonaq gələr.



Bərpanəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 1 ç.v.
Sifariş 28
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS –A"

